

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 115 (24.002)

22 iyun 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Özbəkistan Respublikasına dövlət səfərinə gəlib.

Həmin gün Daşkənddə Heydər Əliyev Meydanının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev açılış mərasimində iştirak və çıxış ediblər.

İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Daşkənddə Müstəqillik abidəsini ziyarət ediblər. Dövlətimizin başçısı abidənin önünə əklil qoyub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub. “Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə”ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev imzalayıblar. Sonra müxtəlif anlaşma memorandumu və əməkdaşlıq haqqında sazişlər imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev iyunun 21-də mətbuata bəyanatlarla çıxış ediblər. Ölkə başçıları Daşkənddə “TEXNOPARK” MMC-nin fəaliyyəti ilə tanış olublar, “Kuksaroy” dövlət iqamətgahında Fəxri qonaqlar xiyabanında ağac əkiblər.

## Gənc dövlət qulluqçularının andiçmə mərasimi olub

*23 iyun – Dövlət Qulluqçularının Peşə Bayramı Günü ərəfəsində Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan olunmuş müsabiqədə müvəffəqiyyət qazanan dövlət qulluqçularının andiçmə mərasimi keçirilib.*



Dövlət Bayrağı Muzeyində keçirilən tədbirdə Dövlət İmtahan Mərkəzinin sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, Ali Məclisin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə muxtar respublikada davamlı tərəqqiyə və yüksəlişə doğru aparan uğurlu siyasət dövlət qulluğu sahəsinin inkişafı üçün əlverişli imkanlar yaradıb.

Qeyd olunub ki, mərkəz tərəfindən 2011-ci ildən bu günədək dövlət qulluğunda inzibati vəzifələrin tutulması üçün keçirilmiş 22 müsabiqədə 7270 namizəd iştirak edib, onlardan 1354 nəfəri uğur qazanaraq müvafiq vəzifələrə təyin olunub ki, həmin şəxslərin də böyük əksəriyyətini gənclər təşkil edir. Muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifə tutan dövlət qulluqçularının 39 faizə yaxını Dövlət İmtahan Mərkəzinin keçirdiyi müsabiqələrdə uğur qazanan dövlət qulluqçularıdır. Bu gün muxtar respublikada, demək olar ki, bütün dövlət qurumlarında müxtəlif istiqamətlər üzrə işə qəbul prosesi Dövlət İmtahan Mərkəzi tərəfindən mərkəzləşdirilmiş qaydada müsabiqə vasitəsilə həyata keçirilir. Bu isə uğurlu kadr potensialının formalaşmasına və istedadlı gənclərin davamlı şəkildə işlə təmin olunmasına imkan verir.

Bu gün muxtar respublikada vətəndaşların məşğulluq probleminin həlli üçün hərtərəfli işlər görüldüyünü və əlverişli mühit formalaşdırıldığını deyən İsmayıl Qəribli yaradılan şəraitə görə dövlət qulluqçuları adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

Gənc dövlət qulluqçusu Gülşən Qasımova çıxış edərək muxtar respublikamızda gənclərin inkişafı və özünütəsdiqi üçün zəruri şəraitdən danışıb. Dövlət qulluğuna qəbul imtahanlarında iştirak edib 92 bal toplayaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında “ASAN xidmət” Mərkəzində işlə təmin edilən Gülşən Qasımova gənclərə yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirib.

Daha sonra müsabiqəni uğurla başa vurmuş və dövlət orqanlarında yeni vəzifələrə təyin olunmuş namizədlər Azərbaycan Respublikasına sadiq olacaqlarına, onun Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun onlara verdiyi hüquqları və üzərlərinə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, yalnız qanunauyğun surətdə və dövlətin mənafeyi naminə həyata keçirəcəklərinə and içiblər.

Dövlət İmtahan Mərkəzinin sədri dövlət qulluqçularının anda sadiq qalacaqlarına, ümummilli liderimiz Heydər Əliyevin ideyalarına, dövlətə və dövlətçiliyə sədaqətlə xidmət edəcəklərinə, onlara göstərilən etimadı doğruldacaqlarına əminliyini ifadə edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Andın mətnini imzalayan dövlət qulluqçularına andiçmə vərəqələri təqdim edilib. Sonra mərasim iştirakçıları Dövlət Bayrağı Muzeyi ilə tanış olublar.

Xatırladaq ki, müsabiqəyə 169 vakant vəzifə çıxarılmış, həmin vəzifələrin tutulması üçün 696 namizəd sənəd təqdim etmişdir. Müsabiqənin test imtahanları mərhələsində 606 namizəd iştirak etmiş, 267 namizəd keçid balını toplamışdır. Test imtahanında və müsahibə mərhələsində müvəffəqiyyət qazanmış namizədlərdən 81-i vakant vəzifələrə təyin olunmuş, onlardan ilk dəfə dövlət qulluğuna qəbul edilmiş 40 nəfər andiçmə mərasimində iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti**

## Beynəlxalq şirkətlər tərəfindən rabitəçilər və bank əməkdaşları üçün növbəti vebinar keçirilib



*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin proqramçılarının və muxtar respublikada fəaliyyət göstərən banklarda çalışan informasiya texnologiyaları mütəxəssislərinin bilik səviyyələrinin artırılması məqsədilə “Buta Global Enerji” şirkətinin təşkilatçılığı ilə beynəlxalq arenada tanınmış “Dell Technologies”, “PlusClouds”, “Radius” və “Schneider Electric” şirkətləri tərəfindən “Yeni nəsil məlumat mərkəzi infrastrukturları və yeni bulud texnologiyaları” mövzusunda növbəti vebinar keçirilib.*

Vebinarda Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev Ali Məclis Sədrinin rabitə və yeni texnologiyalar sahəsinə göstərdiyi dövlət qayğısından bəhs edərək bildirib ki, rabitə və yeni texnologiyalar sahəsinin maddi-texniki bazasının daim möhkəmləndirilməsi, müasir texnologiyaların tətbiq edilməsi ilə telekommunikasiya xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması bu sahənin inkişafına əsaslı zəmin yaradıb. Vurğulanıb ki, nazirlik tərəfindən işçilərin zəruri peşə istiqaməti üzrə biliklərinin artırılması, habelə müvafiq peşə ixtisasına yiyələnmələri istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Belə ki, ixtisaslı kadrların hazırlanması məqsədilə onlayn kurslar təşkil olunur, vebinarlar və təlimlər keçirilir. Qeyd olunub ki, növbəti vebinar da proqramçıların informasiya texnologiyaları sahəsində bilik və təcrübələrinin artırılmasında xüsusi əhəmiyyətə malikdir.

Daha sonra “Radius” şirkətinin rəhbəri Atilla Çembercinin “Radius həllər mərkəzi”, “Dell Technologies” şirkətinin Şəbəkələrlə iş üzrə müdiri Can Küçükün “Açıq şəbəkə və bulud şəbəkəsi”, “Schneider Electric” şirkətinin Məlumat mərkəzi həlləri üzrə mütəxəssisi Alphan Ərdəmin “Yeni məlumat mərkəzlərində (Data center) enerji səmərəliliyi”, “PlusClouds” şirkətinin CEO-su Sərkan Koçakın “İnsansız və xarici lisenziyasız məlumat mərkəzi idarəetməsi” və şirkətin mütəxəssisi Əhmət Faruk Dərəlinin isə “Yeni bulud texnologiyaları” mövzularında çıxışları dinlənilib.

Çıxışlarda bildirilib ki, PlusClouds bulud idarəetmə texnologiyasına malik müasir ictimai bulud mühitidir. Bulud texnologiyası müəssisələrdə yerləşən server kompüterlərinin yaddaş sisteminin və proqram resurslarının buludlar üzərinə köçürülməsini təmin edir, yəni onların ümumi qrup halında birləşdirilməsinə imkan verir. Ümumilikdə, bu texnologiya istifadəçinin tələbinə uyğun olaraq onu öz daxili resursları hesabına hesablama və yaddaş resursları ilə təmin edir. Bulud texnologiyaları konsepsiyası kompüter texnologiyalarının infrastrukturunun və proqram təminatının bilavasitə şəbəkə mühitində yaradılmasını və istifadə edilməsini təmin edir.

Bu texnologiyaların üstünlüklərindən danışan zaman o da vurğulanıb ki, istifadəçilər üçün internet olan istənilən yerdən hər hansı bir kompüter vasitəsilə resursları əldə etmək mümkündür. Fərdi kompüterdə hər hansı bir nasazlıq yarandığı halda istifadəçi dəyərli məlumatı itirmir və məlumatları hər hansı digər kompüterdə yenidən əldə edə bilər.

Həmçinin vebinar zamanı avtomatlaşdırılmış yeni nəsil məlumat mərkəzlərini insansız və xarici lisenziyasız idarə etməyin mümkünlüyü barəsində də iştirakçılara məlumat verilib.

Sonda suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

## Taxıl biçininə başlanılıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ərzaq məhsulları istehsalını artırmaq, əhalini təhlükəsiz və keyfiyyətli ərzaqla təmin etmək, daxili tələbatın ödənilməsində idxaldan asılılığı azaltmaq və sahibkarlıq mühitini yaxşılaşdırmaq məqsədilə 17 sentyabr 2008-ci il tarixdə təsdiq etdiyi “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” bu qayğının ifadəsi olmaqla kənd təsərrüfatı məhsullarının istehsalına marağı daha da artırmışdır. Şərur rayonunun torpaq mülkiyyətçiləri də bu proqramdan irəli gələn vəzifələrin həll edilməsində, daxili bazarın yerli istehsala olan tələbatının ödənilməsində fəallıq göstərirlər.

Əsasən, taxılçılıq rayonu kimi tanınmış Şərurda, ümumilikdə, 4 min 38 hektarda, o cümlədən 3 min 276 hektar buğda, 762 hektar arpa sahəsində biçin keçiriləcək. Sahələrdə becərmə tədbirləri aqrotexniki tələblərə uyğun ardıcıllıqla aparılmış, bunun nəticəsi olaraq zəmilərdə bol məhsul yetişdirilmişdir.

Hər il olduğu kimi, bu il də Şərur rayonunda bol taxıl məhsulu götürüləcəyi gözlənilir. İndi qarşıdakı hədəf yetişdirilmiş məhsulun vaxtında və itkisiz toplanmasından ibarətdir. Rayonda bu məqsədlə genişmiqyaslı hazırlıq işləri görülmüşdür. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin Şərur Bazasında, fiziki və hüquqi şəxslərdə olan 9 kombaynın, kifayət qədər taxıldaşıyan maşının və qoşqulu traktorun, presvuran aqreqatın biçinə tam hazır vəziyyətə gətirilməsi təmin edilmişdir. Rayon üzrə olan məlumata görə 20 iyun tarixə 22 hektar ərazidə arpa tədarük olunmuş, buğda biçini aparılmışdır.



**Xəbərlər şöbəsi**

# Bir zamanlar işığa həsrət qalan diyarım indi nura qərq olub

***Blokada şəraitində yaşayan və inkişaf edən qədim Naxçıvan torpağının müstəqillik illərində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də enerji təhlükəsizliyinin təmin olunması ilə bağlıdır. Ötən əsrin 90-cı illərini xatırlayanlar yaxşı bilir ki, həmin vaxt muxtar diyarımız, sözün həqiqi mənasında, qaranlığa qərq olmuş, elektrik enerjisinin yoxluğu ucbatından fabrik və zavodlar fəaliyyətini dayandırmış, beləliklə, insanlar işsiz-gücsüz qalmış, iqtisadiyyat iflic vəziyyətə düşmüşdü. Elektrik enerjisi ilə yanaşı, təbii qazın da kəsilməsi, üstəlik, dəmir yolunun fəaliyyətinin dayandırılması ilə naxçıvanlılar çarəsiz vəziyyətdə qalmışdılar.***

İstilik yarada bilməyən əhali evləri qızdırmaq, ocaq qalayıb yemək bişirmək üçün çarəni ağacları kəsməkdə görürdü. Hətta çoxları məcbur qalıb bargətirən meyvə ağaclarını da kəsirdilər. Beləliklə, Naxçıvanın ana təbiəti də blokada çətinliyinin ağırlığını yaşayırdı. Yenə də problemlər həll olunmur, əhalinin ərzaq qıtlığı, insanların isti, soyuq hava demədən çörək növbələrində günlərlə gözləməsi, lampa və şam işıqlı gecələri ilə insanlarımızın imtahanı davam edirdi... Taleyin bir qismməti idi ki, həmin vaxt ulu öndər Heydər Əliyev Naxçıvana gəldi və müstəqil Azərbaycanın gələcək inkişaf istiqamətlərini məhz muxtar diyarda işləyib hazırladı. O çətin illərdə dahi şəxsiyyət həm də Naxçıvanı enerji böhranından çıxarmaq üçün mühüm addımlar atdı. Qonşu Türkiyə və İran İslam respublikaları ilə aparılan diplomatik danışıqlardan sonra Naxçıvan enerji idxalına nail oldu. Ölkə Prezidenti cənab İlham Əliyev o illəri belə xarakterizə edir: ***"Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk".***

Ölkəmiz 1991-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqilliyinə qovuşaraq inkişaf, tərəqqi yolunda addımlamağa başladı. Bütün regionlar, eləcə də muxtar respublika da bu inkişafdan öz payını aldı. Böyük quruculuq layihələri zamanla diyarımıza tətbiq olundu. Muxtar respublika əhalisinin yaşayışının təmin edilməsi üçün bütün sahələrin inkişafına diqqət artırıldı. Bu sahələrdən ən vacibi elektrik enerjisi ilə təminat idi. Çünki həyatı elektrik enerjisi olmadan təsəvvür etmək mümkün deyil. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"İnsanların həyatını ərzaqsız təsəvvür etmək mümkün olmadığı kimi, enerjisiz də təsəvvür etmək mümkün deyil".***

Muxtar respublika əhalisinin fasilələrlə istifadə etdiyi elektrik ener-



jisi dövlətimizin diqqət və qayğısı ilə daim enerjiyə çevrilməyə başladı. Bu diyarın iqlim şəraiti alternativ və bərpa olunan enerjidən istifadə üçün geniş imkanlar açdı. Müasir energetika infrastrukturunun yaradılması və enerji təhlükəsizliyinin təmin olunmasında bu amil əsas götürülərək su, külək, Günəş Elektrik stansiyaları tikilərək bir-birinin ardınca istifadəyə verildi.

Dahi şəxsiyyətin bu sahədə müəyyən etdiyi siyasi kursun müstəqillik illərində uğurla davam etdirilməsi Naxçıvanı enerji idxalçısından enerji ixracatçısına çevirdi. Göstərilən diqqətin nəticəsidir ki, həm də enerji təsərrüfatında müasir infrastruktur yaradılıb, enerjinin hasil olunmasından istehlakınadək yeni texnologiyaların tətbiqinə nail olunub.

Bu gün muxtar respublikamızda həyata keçirilən enerji layihələrinin gələcəyə doğru hesablanmış böyük işlər olduğunu görməkdəyik. Xüsusilə son illərdə Naxçıvan Muxtar Respublikasında bərpa olunan enerji mənbələri üçün qoyulan investisiyalar bu işin mahiyyətini bütün aydınlığı ilə ortaya çıxarır. Hazırda Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin tabeliyində 11 elektrik stansiyası vardır ki, onlardan 9-u bərpa olunan enerji mənbələri hesabına fəaliyyət göstərir. Cari ildə Şərur rayonunda istifadəyə verilən növbəti Günəş Elektrik Stansiyası da bu istiqamətdə görülən işlərin davamıdır.

Zeyvə kəndində 15 hektar əkinəyararsız torpaq sahəsinin 7,9 hektarı ilk tikilən 5 meqavatlıq, 4,25 hektarı isə yeni tikilən 3 meqavat gücündə Günəş Elektrik Stansiyası üçün istifadə edilib. Əkinəyararsız ərazidə tikilən 8 meqavatlıq Günəş Elektrik Stansiyası istifadəyə verildikdən sonra muxtar respublikada belə stansiyaların gücü xeyli yüksəlmişdir. Stansiyanın layihə gücü artırıldığı üçün il ərzində 12 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcəkdir. Bu da muxtar respublikada elektroenergetika sistemi sahəsinin inkişafına dövlət qayğısının bariz nümunəsidir.

Növbəti Günəş Elektrik Stansiyasında İsveçrənin "Pure Energy Development" SARL şirkəti ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti arasında imzalanan müqaviləyə əsasən hər birinin gücü 330 vatt olan 9108 "PERC" tipli müasir "şüşə-şüşə" formalı günəş panelləri, hər birinin gücü 50 kilovat olan 60 invertor, müasir tip kommutasiya aparatları və transformator yarımstansiyaları quraşdırılıb.

Stansiyada alçaq və yüksəkgərginlikli kabel xətləri, eləcə də rabitə, müşahidə və idarəetmə sistemi üçün optik kabel xətləri çəkilib, ərazi çəpərlənib, siqnalizasiya və videomüşahidə qurğuları ilə təmin olunub. Stansiyanın mövcud SCADA sistemi genişləndirilib, iki böyükölçülü nəzarət monitorları və kompüter avadanlığı quraşdırılıb. Yenilənən SCADA sistemi elektrik enerjisi istehsalının və ötürülməsinin müasir texnoloji səviyyədə həyata keçirilməsinə imkan yaradıb. Eyni zamanda istehsal proseslərini yerində və ya uzaqdan idarə etmək, real vaxt rejimində verilənləri müşahidə etmək, toplamaq və emal etmək, etibarlılıq və təhlükəsizliyi gücləndirməklə yanaşı, digər Günəş Elektrik stansiyalarının sistem operatorlarının istifadə etdikləri SCADA sistemlərinin məlumat mübadiləsinin, o cümlədən idxal-ixrac əməliyyatlarının yüksək səviyyədə təmin edilməsinə bilavasitə şərait yaradır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu gün istifadəyə verilən yeni Günəş Elektrik Stansiyası ilə muxtar respublikanın Günəş Elektrik stansiyalarının gücü 16 meqavata, illik istehsal gücü isə 55 milyon kilovat-saata çatdırılacaqdır. Bu da, ümumilikdə, muxtar respublikada enerji istehsalının 11 faizə yaxınını təşkil edəcəkdir. Şərur rayonunda qurulan 8 meqavatlıq Günəş Elektrik Stansiyası isə rayonun elektrik enerjisinə olan tələbatının 17 faizini təşkil edəcəkdir".***

Yazımızın əvvəlində xatırladı-



ğımız o çətin günlərdən əsər-əlamət qalmayıb. Qaranlıqdan bir işıq doğub sanki doğma diyarıma. O işıq ki onun nuru gələcək nəsillərin yolunu da işıqlandıracaq. Unutmayaq ki, bu işıqlı günlərə çox çətinliklər yaşayaraq gəlib çatdıq. Şükürlər olsun ki, bir zamanlar işığa həsrət qalan diyarım indi nura qərq olub. Gecələri zülmət, evləri işıqsız, küçələri qaranlıq olan muxtar respublikanın indi bugünkü gözəlliyindən fəxrlə danışıram, qürurla söhbət açıram. İndi şərurluların gecələri də gündüz kimi işıqlıdır. Beləcə, Şərur rayonunda növbəti Günəş Elektrik Stansiyasının istifadəyə verilməsilə muxtar respublikamızda daha bir uğurlu layihəyə imza atıldı. Bir daha sübut olundu ki, Naxçıvanın hər qarışı – torpağı, suyu, havası qızıldan da qiymətlidir. Bu gün tam əminliklə deyə bilərik ki, sahib olduğumuz təbii sərvətlərdən səmərəli istifadə ilə biz artıq bütün sahələrdə öz sözümüzü deməyə, ölkəmizin iqtisadi gücünə güc qazandırmağa qadirik.

**Heydər MƏMMƏDOV**
***"Şərurun səsi" qəzetinin redaktoru***

# Yerli istehsal məhsulları yüksək keyfiyyət göstəricilərinə malikdir

*Muxtar respublikada istehsal olunan məhsulların rəqabətqabiliyyətinin artırılması, onların daxili bazarla yanaşı, xarici bazarlara çıxışına dəstək göstərilməsi, istehsal prosesində, eləcə də xidmət sferasının təşkilində müasir yanaşmanın təmin olunması Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin fəaliyyətində prioritet istiqamətlərdəndir. Bu kimi istiqamətlərdən biri də məhsulların keyfiyyətinə nəzarətin mütəmadi olaraq diqqətdə saxlanılmasıdır. Cari ilin may ayında, ümumilikdə, məhsulların 98, o cümlədən qida məhsullarının 86 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.*





Muxtar respublikada arıçılığın inkişafına xüsusi önəm verilir. "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində aidiyyəti orqanların nümayəndələri ilə birlikdə ötən ay Şahbuz rayonunun Kolanı kəndində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüş keçirilmiş, onlara bal məhsulunun fiziki-kimyəvi göstəricilərinə dair müvafiq standartdan çıxarışlar təqdim olunmuşdur.

Qəbul edilmiş müvafiq Dövlət proqramlarının icrası istiqamətində ötən ay emal olunmuş kənd təsərrüfatı məhsullarının 22, meyvə-tərəvəz məhsullarının isə 19 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin standartlara uyğunluğu müəyyən olunmuşdur. Hesabat dövründə ailə təsərrüfatlarında və müəssisələrdə istehsal edilən emal olunmuş kənd təsərrüfatı məhsulları üçün 12, o cümlədən ailə təsərrüfatlarında istehsal olunan məhsullar üçün 9, müəssisələrdə istehsal olunan məhsullar üçün 3 etiket layihəsi standartlara uyğun olaraq hazırlanmış və aidiyyəti üzrə təhvil verilmişdir.

"2022-ci ilin Naxçıvan Muxtar Respublikasında "Sənaye ili" elan edilməsinə dair Tədbirlər Planı"nın icrası istiqamətində may ayı ərzində sənaye məhsullarının 76 halda laboratoriya analizləri aparılmış və bu istiqamətdə nöqsan aşkar edilməmişdir.

"Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası çərçivəsində "Naxçıvan qovurması"nın istehsalının genişləndirilməsi, kiçikhəcmli taralarda qablaşdırılması və ixracının dəstəklənməsi, meyvə və tərəvəzlərin, bostan məhsullarının qurudulması, qablaşdırılması, etiketlənməsi ilə bağlı aidiyyəti orqanların əməkdaşları ilə birlikdə hesabat ayında Şahbuz rayonunun Ağbulaq kəndində ailə təsərrüfatçıları üçün seminar-müşavirə keçirilmiş, maarifləndirici bukletlər və "Naxçıvan qovurması" əmtəə nişanlı etiketlər təqdim olunmuş, ailə təsərrüfatı məhsullarının tədarükünü və satışını asanlaşdırmaq məqsədilə ölkəmizin digər bölgələrində ailə təsərrüfatı məhsullarının satışını həyata keçirən təsərrüfat subyektlərinə məxsus 34 ünvan kartı ailə təsərrüfatı nümayəndələrinə paylanılmışdır. Ötən ay 9 ailə təsərrüfatı üçün istehsal etdikləri məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılması, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə 40 etiket layihəsi hazırlanmışdır. Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün may ayında İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birgə məhsullardan 10 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin standartlara uyğunluğu müəyyən edilmiş və sınaq protokollarının surəti aidiyyəti üzrə ailə təsərrüfatlarına çatdırılmışdır.

"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası üzrə aidiyyəti orqanların əməkdaşları ilə birlikdə hesabat dövründə Kəngərli rayonunun Böyükdüz kəndində kənd təsərrüfatı məhsulları istehsalçılarının iştirakı ilə seminar-müşavirə keçirilmiş, iştirakçılara maarifləndirici bukletlər və kənd təsərrüfatı məhsulları üzrə standartlarda müəyyən edilmiş təhlükəsizlik tələblərinə dair çıxarışlar təqdim olunmuşdur. 2017-ci il 25 iyul tarixli beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması, qarşıdakı dövrdə bu imkanların bir daha araşdırılması, ixracın coğrafiyasının genişləndirilməsi üçün verilmiş tapşırıqların, eyni zamanda "Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı"nın icrası istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində Bakı şəhəri və digər bölgələrimizə tələbata uyğun olaraq davamlı qaydada ailə təsərrüfatı məhsullarının göndərilməsi təmin edilir.

ISO beynəlxalq standartlarının tətbiqinə və sənayedə brendləşməyə dair, ixrac qabiliyyətli məhsulların əmtəə nişanlarının mühafizəsi və beynəlxalq sistem vasitəsilə qeydiyyatı istiqamətində aparılan tədbirlərə uyğun olaraq may ayında muxtar respublikada ixracyönümlü məhsul istehsal edən və keyfiyyəti idarəetmə sistemi tətbiq edilməmiş müəssisələrin nümayəndələrinin iştirakı ilə növbəti maarifləndirici seminar keçirilmiş, əmtəə nişanının beynəlxalq sistem vasitəsilə qeydiyyatının əhəmiyyəti diqqətə çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilmiş müşavirədə verilən tapşırıqların və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 15 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı"nın icrası istiqamətində qida məhsullarının istehsalı, daşınması, saxlanması və satışı zamanı tibbi-bioloji tələblərə, sanitar-gigiyena norma və qaydalarına əməl olunması istiqamətində nəzarət tədbirlərinin həyata keçirilməsi məqsədilə Gigiyena və Epidemiologiya Mərkəzi ilə birgə may ayında muxtar respublikada qida məhsullarının istehsalı, ticarət və xidmət sahələrində fəaliyyət göstərən 30 təsərrüfat subyektinə baxış keçirilmiş, 5 təsərrüfat subyektində aşkar olunmuş nöqsanlar aradan qaldırılmışdır.

Hesabat ayında Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə idxal olunan qızdırıcı elektrik və qaz cihazlarına baxış keçirilmiş, müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan cihazların idxalına icazə verilməmişdir.

Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası tərəfindən muxtar respublikada fəaliyyət göstərən teleradioların monitorinqi aparılmış, fəaliyyətləri təhlil edilmiş, müəyyən nöqsanlar qeydə alınmışdır. Müşahidə edilən çatışmazlıqlar dərhal teleradiolara bildirilmiş və aradan qaldırılmışdır.*

## Teleradiolarda peşəkarlıq səviyyəsinin yüksəldilməsi diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən qəbul edilmiş Fərman və sərəncamlar, Dövlət proqramlarının icrası teleradiolarda operativ şəkildə işıqlandırılmışdır.

Qeyd edək ki, may ayının 19-da Naxçıvan televiziyasında monitorinq keçirilmiş, televiziya və radionun birinci rübdəki fəaliyyəti təhlil olunmuş, nöqsan və təkliflər diqqətə çatdırılmışdır.

Hesabat dövründə Naxçıvan televiziyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etdiyi tədbirlərə həsr olunmuş 12 telematerial hazırlanmışdır.

May ayında verilişlərin növbəti 90 sayı efirə təqdim olunmuşdur ki, bunun da 22-si İctimai-siyasi məsələlər redaksiyası, 10-u Təhsil və sosial məsələlər redaksiyası, 20-si Ədəbi-bədii verilişlər və müəllif proqramları redaksiyası, 24-ü "Səhər" proqramı və musiqi verilişləri redaksiyası, 13-ü Uşaq, gənclər və idman redaksiyası, 1-i Sənədli filmlər və dublyaj redaksiyası tərəfindən hazırlanmışdır.

Ölkəmizdə 130 illiyi qeyd edilən istiqlal şairimiz Əhməd Cavadın doğum günündə televiziyada videoçarx hazırlanmış, "İstiqlal carçısı", "Söz məclisi", "Ədəbi portretlər" verilişləri yayımlanmış, "Günaydın" səhər proqramının xüsusi buraxılışları təqdim edilmişdir. Qeyd edək ki, televiziyanın şairlə bağlı hazırladığı videoçarx sosial şəbəkələrdə populyarlıq qazanmışdır. May ayında "Xəbərlər" proqramının əsas buraxılışından aktual süjetlər, xüsusi reportajlar yayımlanmışdır.

Bəhs edilən dövrdə Naxçıvan radiosu 487 saat efirdə olmuşdur. Ümumi efirin 59 faizi radionun öz istehsalı olan verilişlər, canlı proqramlar, xəbər buraxılışları, audioçarxlar, 41 faizi isə konsert proqramları və digər hazır materiallardan ibarət olmuşdur. Ümumilikdə, ay ərzində 98 veriliş və canlı proqram, 375 konsert proqramı təqdim edilmişdir. May ayında Naxçıvan radiosunun efirində yeni bir layihə – "Miras" verilişi hazırlanaraq təqdim edilmişdir.

"Kanal 35" televiziyasında ötən ayda "İnteraktiv dərs. "Əhməd Cavad – 130", Heydər Əliyev Muzeyi, "Mütalia vaxtı", "Təhsilə dair", "Canlı radio: Nazilənin kitab rəfi", "Elektronika nədir?" adlı verilişlər hazırlanaraq efirə yayımlanmışdır. Həmçinin muxtar respublikanın təhsil sahəsində yeniliklər və keçirilmiş tədbirlər "Təhsildə bu gün" başlığı ilə efirə təqdim edilmişdir. Muxtar respublikanın turizm, mədəni, sosial, iqtisadi və başqa sahələrini əks etdirən videomateriallarin yayımı may ayında davam etdirilmiş, bu mövzularda televiziyada 24 film efirə təqdim edilmişdir ki, bu da ümumi efirin 7,8 faizini təşkil etmişdir.

Bəhs edilən dövrdə "Naxçıvanın səsi" radiosu 488 saat efirdə olmuş və efir müddətinin 152 saatını canlı yayım proqramları təşkil etmişdir. Ümumilikdə, ay ərzində canlı proqram və verilişlər efirin 27 faizini, milli musiqilər 44 faizini, "Xəbərlər" proqramı 8,6 faizini, təhsil və maarif yönümlü audioçarxlar 20,1 faizini təşkil etmişdir.

Televiziya və Radio Şurası may ayında Universitet televiziyası ilə əməkdaşlığı davam etdirmiş, yaradıcı dəstəyi ilə gənc televiziya əməkdaşlarına stimul vermişdir. Belə ki, şura əməkdaşının mütəmadi olaraq televiziyanın yaradıcı və texniki iş prosesindəki iştirakı efir təqdimatına cəlb olunmuş tələbə jurnalistlərlə görüşlərin keçirilməsi, onlara təcrübi biliklərin aşılanması, efir prosesindəki təqdimatın əyani şəkildə nümayiş etdirilməsi təqdimat sarıdan müsbət irəliləyişin olmasına gətirib çıxarmışdır. Universitetin "Nuhçıxan" radiosu may ayında, əsasən, yayım profilini konsert proqramları və tələbələrin sərbəst işləri, kollokvium və dialoq şəklində hazırlanmış verilişlərlə qurmuşdur. Yaxşı haldır ki, ötən aylarda, əsasən, televiziya proqramlarının audio variantı ilə öz yayım profilini quran radioda artıq yeni verilişlər efirə təqdim edilir.

Şura may ayında "Naxçıvanı qürurla paylaşırıq" layihəsi ilə Naxçıvanla bağlı yüzlərlə paylaşıma nail olmuş, baxış sayını 5 milyona çatdırmışdır. Qeyd edək ki, layihə çərçivəsində rejissor Vahid Həsənovun Batabatla bağlı paylaşdığı video Azərbaycanda yüzlərlə sosial şəbəkə istifadəçisi tərəfindən paylaşılmış, yüzlərlə rəy yazılmışdır. Həmçinin şura tərəfindən may ayı ərzində digər sosial şəbəkələrdə 490 linkdə 814 şəkil, video və xəbər paylaşılmışdır.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

## Ötən ay muxtar respublika muzeylərinə 91 yeni eksponat verilib

*Cari ilin may ayında muxtar respublikanın mədəniyyət müəssisələrində "Şuşa ili", tarixi və əlamətdar günlərlə, o cümlədən Beynəlxalq Muzeylər Günü və Müstəqillik Günü, tanınmış şəxsiyyətlərin anım günləri və yubileyləri ilə bağlı tədbirlər keçirilmiş, ustad və açıq dərslər təşkil edilmiş, sərgilər qurulmuş, eləcə də "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilmiş kitabların müzakirələri davam etdirilmişdir.*



Mayın 10-da ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyinin qarşısında muzeyin fondunda saxlanılan rəsm əsərləri və xalçalardan ibarət sərgi təşkil olunmuşdur. Naxçıvan teatrının yaradılmasının 139-cu ildönümü münasibətilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında tədbir keçirilmiş, Karel Çapekin "Ana" əsəri əsasında hazırlanan eyniadlı tamaşa nümayiş olunmuşdur. Həmçinin hesabat ayında Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin birgə təşkilatçılığı ilə keçirilən "Milli dəyərlərimiz folklorumuzda" adlı səhnəciklərin nümayişi müsabiqəsinin yekun tədbiri olmuş, qaliblər nazirliyin diplomları ilə təltif edilmişlər. Eləcə də Naxçıvan Dövlət Uşaq Teatrında Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud uşaqlar arasında təşkil olunmuş "İstedadlar səhnəsi" yaradıcılıq müsabiqəsi yekunlaşmış, qaliblər mükafatlandırılmışdır.

Hesabat dövründə nazirliyin himayəsinə verilmiş Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Dövlət Universitetinin müvafiq ixtisasları üzrə təhsil alan tələbələri üçün kitab müzakirələri keçirilmiş, açıq dərslər təşkil edilmiş, mühazirələr oxunmuş, film nümayişi olmuşdur. Həmçinin Naxçıvan Musiqi Kollecinin bir qrup tələbəsinin M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında təcrübə keçməsi təmin edilmişdir.

Ay ərzində muxtar respublikanın muzeylərini 48 min 474 yerli, 18 min 665 əcnəbi olmaqla, ümumilikdə, 67 min 139 tamaşaçı ziyarət etmiş, muzeylərə 91 yeni eksponat daxil olmuşdur. Hesabat ayında ümumtəhsil məktəbləri ilə Heydər Əliyev Muzeyi arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə interaktiv dərs keçilmişdir. Təhsil və Mədəniyyət nazirliklərinin birgə qrafikinə əsasən ötən ay muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün muzeylərdə, ümumilikdə, 50 açıq dərs keçilmiş, 23 mühazirə oxunmuşdur.

Ötən ay "Mütaliə", "Kitabxanaçı", "Kitabxana", "Oxucu" və "Nağıl" günləri ilə bağlı muxtar respublikanın kitabxanaları tərəfindən 124 tədbir keçirilmiş, həmçinin sağlamlıq imkanları məhdud 42 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. May ayında muxtar respublikanın kitabxanalarına 133 adda 186 nüsxə çap məhsulu daxil olmuşdur. Həmçinin bu kitabxanalara bu ilin may ayında 990 yeni oxucu müraciət etmiş, oxucu gəlişi 9 min 270, kitab verilişi isə 48 min 326 nüsxə olmuşdur. Bundan başqa, ötən ay elektron kataloqa 651 adda kitab işlənərək elektron kataloqdakı kitabların sayı 32 min 374-ə, şəbəkəyə işlənmiş (PDF) kitabların sayı isə 3 min 873-ə çatdırılmışdır. Ay ərzində elektron kitabxanadan 395 lokal, 420 qlobal olmaqla, ümumilikdə, 518 oxucu istifadə etmişdir.

6, 8 may tarixlərdə Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzin və rayon mədəniyyət şöbələrinin təşkilatçılığı ilə Sədərək və Şahbuz rayonlarında Xalq yaradıcılığı günü çərçivəsində rayon mədəniyyət saraylarının, mədəniyyət evləri və klubların folklor qrupları və dərnək üzvlərinin ifasında xalq oyun və mərasimlərinin, yallı, rəqs və musiqi nömrələrinin videoçəkilişi aparılmışdır. Naxçıvan Dövlət Film Fondu tərəfindən Heydər Əliyev adına Hərbi Liseyin kursantları, ümumtəhsil məktəblərinin şagirdləri, eləcə də sağlamlıq imkanları məhdud, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün və hamiliklə bağlı, ümumilikdə, 10 film nümayiş olunmuşdur. Həmçinin ay ərzində filmlərin nömrələnməsi, pasportlarının yenilənməsi və lentlərin təmizlənməsi işləri davam etdirilmişdir. Mayın 26-da "Keçmişdən soraq, gələcəyə səsləniş" mövzusunda qısametrajlı filmlər müsabiqəsinə yekun vurulmuş, qaliblər mükafatlandırılmışlar.

Ötən ay C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında İ.Əfəndiyevin "Xurşidbanu Natəvan", H.Cavidin "Topal Teymur", M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında Ş.Perronun "Çəkməli Pişik", Naxçıvan Dövlət Uşaq Teatrında isə C.Məmmədquluzadənin "Saqqallı uşaq" əsərləri əsasında səhnələşdirilən tamaşaların məşqləri aparılmışdır. Bundan başqa, may ayında Naxçıvan Dövlət Milli Dram Teatrı muxtar respublikanın Şərur, Babək, Kəngərli rayonlarında "Ana" və "Teleskop" tamaşaları ilə qastrol səfərlərində olmuşdur. Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivləri hesabat ayında muxtar respublikada keçirilən tədbirlərdə konsert proqramları ilə çıxışlar etmişlər.

Ötən ay nazirliyin Gənclər Təşkilatının üzvləri arasında kitab müzakirələri olmuş, gənclər üçün Ordubad rayonunun Dırnıs kəndində Mikayıl Müşfiq yaradıcılığına həsr olunmuş "Yenə o bağ olaydı" adlı tədbir təşkil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Xüsusi qayğıya ehtiyacı olan uşaqlar Ağbulaq İstirahət Mərkəzində təşkil olunan "Yay məktəbi"nə cəlb olunub

Muxtar respublikada xüsusi qayğıya ehtiyacı olan uşaqlar hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Onların sağlamlıqları, təlim-tərbiyəsi, təhsilləri, intellektual səviyyəsinin yüksəldilməsi, milli-mənəvi dəyərlər əsasında tərbiyə olunması və asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır və bu sahədə ardıcıl işlər görülür. Görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Həmkarlar İttifaqları Şurasının təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində xüsusi kateqoriyadan olan uşaqlar üçün "Yay məktəbi" təşkil olunub. Qeyd edək ki, xüsusi qayğıya ehtiyacı olan ailələrin, şəhid və qazi ailələrinin övladları, o cümlədən valideyn himayəsindən məhrum olmuş uşaqlar olmaqla, ümumilikdə, 47 uşağın iştirak etdiyi "Yay məktəbi"nə 20 iyun tarixində start verilib. Bu münasibətlə Ağbulaq İstirahət Mərkəzində tədbir keçirilib.



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova və Həmkarlar İttifaqları Şurasının sədr müavini Xatirə İbrahimli tədbirdə çıxış edərək artıq ənənə halını alan "Yay məktəb"lərinin uşaqlar üçün əhəmiyyətinə toxunublar. Bildiriblər ki, muxtar respublikada uşaqlar yüksək diqqət və qayğı ilə əhatə olunublar. Dövlətimiz tərəfindən onların layiqli vətəndaş kimi yetişmələri, milli ruhda tərbiyə olunmaları, bilikli, bacarıqlı, yüksək intellektli vətəndaş kimi formalaşmaları üçün bütün mümkün tədbirlər həyata keçirilir. "Yay məktəb"lərinin təşkil edilməsinin uşaqların mənəvi inkişafında çox böyük əhəmiyyətinin olduğu vurğulanıb. Çıxış edənlər diqqətə çatdırıblar ki, uşaqların mənəvi-psixoloji inkişaflarına xidmət edən bu cür tədbirlər onlara yeni dostluqlar qazanmağa, muxtar respublikanın təbiəti ilə yaxından tanış olmağa, dünyagörüşlərini artırmağa, asudə vaxtlarını səmərəli keçirməyə əlavə imkanlar yaradır.

Şəhid Ruzi İbrahimovun qızı Gülay İbrahimova tədbirdə çıxış edərək gözəl təbiəti və istirahət üçün ideal məkan olan Ağbulaq İstirahət Mərkəzində olmaqdan sevinc hissi keçirdiyini, burada keçirilən günlərin xoş və maraqlı olacağına, yeni dostlar, tanışlıqlar qazanacağına inandığını deyib. Bildirib ki, bu fürsəti yaxşı dəyərləndirməyə, "Yay məktəbi"ndə fəal iştirak etməyə çalışacaq. Gülay İbrahimova onlara belə imkanın yaradılmasına görə uşaqlar adından dövlətimizə minnətdarlıq edib.

Sonra uşaqlar Ağbulaq İstirahət Mərkəzində onlar üçün ayrılmış otaqlarda yerləşdirilib.

Məlumat üçün bildirək ki, "Yay məktəbi"nin proqramına uyğun olaraq uşaq hüquqları ilə bağlı maarifləndirici seminar, Ağbulaq kəndinə ekskursiya, müxtəlif idman və əyləncəli oyunlar, intellektual yarışlar, diskussiyalar, oxunması zəruri olan kitabların mütaliə və müzakirəsi keçiriləcəkdir. "Yay məktəbi"ndə vətənpərvərlik mövzusunda Azərbaycan filmlərinin nümayişi olunması və Şahbuz Mədəniyyət Sarayının "Batabat" İnstrumental Ansamblının iştirakı ilə konsert proqramının təşkil edilməsi də nəzərdə tutulub.

Həmçinin Ağbulaq İstirahət Mərkəzində komitə tərəfindən istedadlı qadınların əl işlərindən ibarət sərgi-satış da təşkil edilib. Sərgi-satış 3 gün ərzində davam edəcək. İstirahət müddətində keçirilən müsabiqə və yarışlarda fəal olan uşaqlar Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən diploma mükafatlandırılacaq.

Qeyd edək ki, "Yay məktəbi"nə cəlb olunmuş uşaqlara nəzarət etmək üçün 4 nəfər komitə əməkdaşı və istirahət müddətində uşaqların sağlamlıqlarının qorunması, onlara ilkin tibbi yardımın göstərilməsi məqsədilə 1 nəfər həkim təhkim olunub. "Yay məktəbi" 22 iyun tarixdə başa çatacaq.

## Turistik mərkəzlərdə qadınların əl işlərindən ibarət səyyar sərgi-satışlar davam etdirilir

Yay turizminin davam etdiyini və turistlərin muxtar respublikaya marağını nəzərə alsaq, turizmin ən mühüm amillərindən biri kimi



məsələni "tanıtmaq" və "təbliğ etmək" seqmentinin reallaşması üçün əlverişli zamanın olduğu danılmaz bir faktdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən istedadlı qadınların əl işlərindən ibarət səyyar sərgi-satışların muxtar respublikanın turistik mərkəzlərində təşkili, bu mənada, mühüm əhəmiyyət kəsb edir.

Heç şübhəsiz ki, yerli sakinlərin və gələn qonaqların vaxtlarını maraqlı və əyləncəli keçirmələri üçün üz tutduqları ən ideal məkanlardan biri də "Saat Meydanı" turistik istirahət mərkəzidir. Məhz bu baxımdan qadınların məşğulluqlarının təmin edilməsi, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması, həmçinin qadınların əl işlərinin, qədim el sənətinin, milli mənəvi dəyərlərin və xalq tətbiqi sənətinin təbliği məqsədilə növbəti səyyar sərgi-satış "Saat Meydanı" turistik istirahət mərkəzində təşkil edilmişdir.

Səyyar sərgi-satışda toxuma, tikmə, dekorativ iş, təbii daşlardan və yerli daşlardan bəzək əşyaları, gipsdən əl işi, xalça, mis üzərində döymə, taxta üzərində yandırma, ağac üzərində oyma, dekorativ tablo, tikmə tablo olmaqla, ümumilikdə, 15 qadının 1300-dən artıq əl işi sərgilənmişdir. Yerli sakinlər və qonaqlar sərgi-satışa böyük maraq göstərmiş və zövqlərinə uyğun əl işlərini satın almışlar.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Yurdum, yuvam, məskənimsən...























### *İtmişdir*

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində Babayeva Bəyimcan Hüseyn qızının adına olan MH0006808 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Xudadanova Xanım Adil qızının adına olan 0300770412 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Məmmədov Əvəz Hüsü oğlunun adına olan evin 1139 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Hüseynzadə Yusif Əli oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Telli Məmmədova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 556